***Şəbnəm MƏMMƏDOVA***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutu***
***shebnem.memmedova1981@mail.ru***
*https://doi.org/10.59849/2309-7949.2025.3.110*

# "FEMİNİZM" VƏ QARAQALPAQ NAĞILLARINDA FEMİNİST MOTİVLƏR

**Açar sözlər:** feminizm, feminist motiv, ideoloji və yuridik hüquqlar, cəmiyyətdə yüksək rolun qorunması, azadlıq və bərabərlik

**РЕЗЮМЕ**

**"ФЕМИНИЗМ" И ФЕМИНИСТИЧЕСКИЕ МОТИВЫ В КАРАКАЛПАКСКИХ СКАЗКАХ**

Наша статья посвящена проблеме феминизма и феминистическим мотивам в каракалпакских сказках. Заметим, что феминизм и феминистическое движение относится к серии политических, идеологических, а также правовых проблем, где не допускается насилие, женщины наравне с мужчинами пользуются всеми правами. Символом феминизма является зеркало планеты Венера с кулаком внутри, что используется по всему миру. В то же время феминизм – это система целостного взгляда на жизнь. Феминисты как в прошлом, так и в настоящем боролись за права женщин, избирательное право, право занимать государственные должности, право на труд, право на собственность и на мн. др. Все это, безусловно, имеет в сегодняшнем мире весьма важное значение.

Данная статья более конкретно посвяшена феминистическим мотивам в каракалпакских народных сказках. У каракалпаков достаточно широкий и разнообразный сказочный репертуар, сред которого особое место занимают такие сказки, как «Гульзиба», «Колдун», «Золотой камень», «Мачеха», «Сын богача и сын бедняка», «Добродушный старик и сорока-воровка», «Хитрая лиса», «Осел и верблюд», «Хитрость осла», «Златоглавая змея», «Три брата», «Зиба и Зейнеб», «Четыре Абдуллы», «Умная женщина», «Как девушка перехитрила хана» и др. В болшинстве из этих сказок, в которых превалируют женские образы, они достаточно смышленные, умные и отличаются своей дальновидностью. При возникшихся спорах между ними и мужчинами они выходят победителями. Здесь же заметим, что, если исследователи других литератур в той или иной степени обратились к проблеме феминистических мотивов в фольклоре, то в изысканиях азербайджанских ученых мы с подобного рода работами не столкнулись. Тем не менее проблема сама по себе достаточно интересна, ибо, когда данный вопрос начали изучать на материале каракалпакских сказок, то увидели в поведении каракалпакских женщин борьбу за свои юридические права, за сохранение подобающей роли в обществе.

**Ключевые слова:** феминизм, феминистика, идеологические и юридические права, сохранение высокой роли в обществе, свобода и равноправие

**SUMMARY**

**"FEMİNİSM" AND FEMİNİST MOTİFS İN KARAKALPAK FAİRY TALES**

Our article is devoted to the problem of feminism and feminist motives in Karakalpak fairy tales. Note that feminism and the feminist movement belong to a series of political, ideological, and legal issues where violence is not allowed, and women enjoy all rights on an equal basis with

men. The symbol of feminism is the mirror of the planet Venus with a fist inside, which is used all over the world. At the same time, feminism is a system of holistic view of life. Both in the past and in the present, feminists have fought for women's rights, suffrage, the right to hold public office, the right to work, the right to property, and many others. All this, of course, is very important in today's world.

This article is more specifically devoted to feminist motifs in Karakalpak folk tales. The Karakalpaks have a fairly wide and diverse fairy-tale repertoire, among which such fairy tales as “Gulziba”, “The Sorcerer”, “The Golden Stone”, “The Stepmother”, “The Rich Man's Son and the Poor Man's Son”, “The Good-natured Old Man and the Magpie Thief”, “The Cunning Fox”, “The Donkey and the Camel”, “The Cunning of the Donkey”, “The Golden-headed Snake”, “The Three Brothers”, “Ziba and Zeineb”, “The Four Abdulls”, "The Clever Woman”, “How the Girl outsmarted the Khan”, etc. In most of these fairy tales, in which female images prevail, they are quite intelligent, intelligent and distinguished by their foresight. When disputes arise between them and men, they come out victorious. We should also note here that while researchers of other literatures have addressed the problem of feminist motifs in folklore to one degree or another, we have not encountered such works in the research of Azerbaijani scientists. Nevertheless, the problem itself is quite interesting, because when they began to study this issue based on the material of karakalpak fairy tales, they saw in the behavior of karakalpak women a struggle for their legal rights, for maintaining a proper role in society.

**Key words:** feminism, feminist, ideological and legal rights, preservation of a high role in society, freedom and equality

Məlum olduğu kimi, feminizm qadınların siyasi, iqtisadi, şəxsi və sosial hüquqlarının kişilərlə bərabərləşdirilməsinə istiqamətlənmiş ideologiyadır. Başqa cür desək, bu, qadınların cəmiyyətdə diskriminasiyası ilə bağlı mübarizədir ki, onun da köklərinin XIX əsrin son rübündən götürülməsi daha məqsədəuyğundur. Feminizmdən bəhs etdikdə burada insanın sosial həyatının mühüm kateqoriyalarından olan gender problemi göz önünə gəlir. Gender isə ingilis dilində “gender” latıncadan geniş mənada “cins” sözü demək olub, sosial cinsin cəmiyyətdə insanın davranışını müəyyənləşdirən element olduğunu və eyni zamanda onun necə və nə şəkildə qəbul edilməsini nəzərdə tutur. Bu, həm də cins rolu davranışıdır ki, onun digər insanlarla – dostları, həmkarları, sinif və kurs yoldaşları, valideynləri, təsadüfən rast gəldikləri və s. ilə tənzimlədiyi qaydaları və münasibətləri müəyyənləşdirir.

Azərbaycanlı tədqiqatçı S.A.Əliyeva “Mədəni feminizm və maddi hüquq” məqaləsində yazır ki, feminizm müxtəlif mərhələlər keçməklə XX əsrin 90-cı illərindən özünün bu günəqədərki mövcud olan mərhələsinə daxil oldu. Və bu dövrü o, interseksionallıq (interseksionallığa həm də kəsişən nəzəriyəyyə də deyilir ki, bu da müxtəlif formalı, yaxud sistemli zülmün üstünlüyünü və diskriminasiyanın tədqiqini öyrənən sahədir) kimi xarakterizə edərək, onu “kəsişmə nöqtəsi” termini ilə adlandırmaqla eyni zamanda bu terminin 1989-cu ildə amerikalı professor Kimbreli Krenşou tərəfindən elmə gətirildiyini vurğulayır [1]. Mədəni feminizm məsələsində K.Krenşou rolların qarışdırılmasını irəli sürməklə qadının ənənəvi statusunun yüksəldilməsini təklif etmişdir. Və eyni zamanda burada onun ənənəvi nəciblik keyfiyyətlərinin, qayğılarının, empatiyasının (digərlərinin qayğısına qal-

masının), daha çox hisslərə qapanmasının və heç bir ehtiyac gözləməməsinin nəzərə alınmasını ortaya çəkmişdir.

Digər tədqiqatçılar A.R.Xayrullina və R.D.Mustafina isə diqqət mərkəzinə çəkdiyimiz məsələni "Başqurd xalq nağıllarında feminist motivlər" adlı məqalədə "feminizm" terminini ilkin mənada qadınların iqtisadi və sosial hüquqları uğrunda hərəkat kimi nəzərdən keçirirlər və feminist motivlərdə elə epizodlara diqqət yetirirlər ki, orada qadın obrazlarının özünün müstəqilliyi, qətiliyi, mənəvi və fiziki qüvvəsinə söykənilməsinə daha böyük yer verilir. Bu baxımdan adları çəkilən tədqiqatçıların təhlilə cəlb etdiyi nağıl nümunələrində məsələyə başqurdların "Alp-batır", "Altınduqa-batır", "Şaura", "Alpamış və Barsınxılu" və b. nağılların əsasında feminist motivlərin daha çox üzə çıxdığını əsaslandırırlar ki, burada qızlar mənəvi baxımdan güclü şəxsiyyətlər olmaqla, həm də nəinki müstəqil olaraq qərarlar qəbul edir, eyni zamanda qəbul etdikləri qərarların nəticəsində öz düşmənlərinə qalib gəlirlər [5].

Biz də feminizm problemini qaraqalpaq nağıllarının materialları əsasında nəzərdən keçirə bilərik. Bəri başdan bildirək ki, qaraqalpaqların son dərəcə zəngin nağıl repertuarı mövcuddur. Onların sırasında "Gülziba", "Cadugər", "Qızıl daş", "Ögey ana", "Varlı oğlu - kasıb oğlu" kimi sehrli; "Xeyirxah qoca və oğru sağsağan", "Bic tülkü", "Eşşək və öküzlər", "Eşşək və dəvə", "Eşşəyin bicliyi", "Lovğa siçan", "Şir və hiyləgər dovşan", "Qurd və it", "Qızıl quş", "Qızılbaşlı ilan", "Tülkü və xoruz" kimi heyvanlar; "İtaətkar oğul", "Məsləhət", "Ağıllı heç zaman itməz, qızıl çürüməz", "Başqasına xeyir diləməzsən, əvəzində ziyan çəkərsən", "Üç qardaş", "Yaşamaq və Doşamaq", "Ziba və Zeynəb", "Aldar Kosanın hiyləgərliyi", "Dörd Abdulla" və başqa bu kimi sosial-məişət nağıllarında biz qaraqalpaq qadınlarının əksəriyyətinin öz hüquqları uğrunda mübarizə apardığını, bəzi hallarda isə hətta kişilərdən daha üstün mövqedə dayandığının şahidi oluruq. Bu da başa düşüləndir. Çünki bəşər övladı dünyaya gələndən onun qadın hissəsi daim kişilərlə eyni hüquqlara yiyələnmək uğrunda mübarizə aparıb, söz sahibi olmağa can atmışlar.

Qaraqalpaq nağıllarında qadınlar və qızlar öz hüquqları uğrunda igidlərlə mübarizələrə girişərkən bu mübarizələrdən qalib çıxırdılar. Buna nümunə olaraq biz qaraqalpaqların "Yetim qız", "Ağıllı qadın", "Ziba və Zeynəb", "Qız xanı necə aldatdı" və başqa bu kimi nağıllarda yer almış qızların mübarizliyinin və ağlının təntənəsini görürük [4, s. 163-196 ].

Hər bir xalqın ənənəvi mədəniyyəti son dərəcə mürəkkəb sosial sistem olaraq özünü müxtəlif şəkildə və çoxyönlü tərəflərdən göstərir. Odur ki, onun elmi baxımdan dərki də böyük və məsuliyyətli sistemli iş tələb edir. Folklor, paleoqrafik, arxeoloji, antropoloji və dil materiallarında yer almış tarix üzrə mənbələr kompleksi xalqı "fərdi və kollektiv sosial münasibətlər subyekti kimi" nəzərdən keçirməyə imkan verir [2, s. 221].

Qeyd etdiklərimiz baxımından qaraqalpaq xalqının çoxsaylı dastan nümunələrində də biz lap əski dövrlərdən qadına verilən yüksək rolun təsirini görməkdəyik. Onların cəmiyyətin sosial və siyasi hərəkatında fəal iştirak etməklə öz hüquqlarının kişilərlə bərabər olmasına səy göstərdiklərini, özlərinin hər hansı diskriminasiyaya məruz qaldıqda həyatın bütün sferalarında iqtisadi, siyasi, mədəni və ailə həyatında bərabər hüquqlar uğrunda mübarizə apardıqlarının şahidi olmaq mümkündür.

Qaraqalpaq xalq nağıllarında yer almış obrazların əyaniliyi, kompozisiyanın aydınlığı və sadəliyi, süjetin diqqəti kifayətqədər məşğul etməsi, zəngin xalq dilindən istifadə – bunların hamısı xalq yaradıcılığının bu janrını yüksək sənət nümunəsi kimi nəzərdən keçirməyə imkan verir [3, s. 198].

Qeyd etmək yerinə düşər ki, "feminizm" termini ilk dəfə fransız utopik sosialisti və filosofu Şarl Furye tərəfindən dövriyyəyə daxil edilmişdir. "Feminist" sözü isə 1852-ci ildə ingilis dilinin "Oksford lüğəti"ndə yer almış və yalnız bundan sonra digər ölkələrdə işlənməyə başlamışdır. XIX əsr liberal feminizminin mühüm nümayəndəsi Elizabet Keydi Stenton özünün daha çox sərbəstlik qazanması uğrunda mübarizə aparmağa səy göstərmişdir. Feminist təfəkkür tərzi əvvəlki bu və ya digər dövrlərdə mövcud olsa da, XX əsrdə bu problem gündəlikdə daha kəskin şəkildə dayanmışdır. Nəticədə Anjela Devis kimi qaradərili qadınların hüquqları uğrunda mübarizə aparan, yenilməz şəxsiyyət və 1970-ci illərdən ABŞ-da ən tanınmış siyasi məhbus, Malala Yusifzay qadınların təhsil hüququ uğrunda yenilməzlik göstərən Nobel mükafatı laureatı pakistanlı fəal qadın; Emma Uotson Birləşmiş Millətlər Təşkilatının xoşməramlı səfiri; Rut Beyder Ginzburq ABŞ Ali Məhkəməsinin sədri, qadınların gender bərabərliyi və azadlığı uğrunda mübariz; Kimberli Krenşou interseksionallıq nəzəriyyəsini yaradan hüquq müdafiəçisi; Boyense qadınların hüquq bərabərliyini daim yuxarı dairələrdə təbliğ edən müğənni; Qreta Tukberq feminizmlə ekoloji ədaləti daim müdafiə edib, onun uğrunda mübarizə aparan ekofəal; Naomi Klyayn kanadalı qadın jurnalist və yazıçı, kapitalizmin, qloballaşmanın dağıdıcı nəticələrini pisləyən, iqlim dəyişikliklərini və problemləri gündəmə gətirən feminist tədqiqatlarında ifşa edən; Cimamanda Nqozi Adiçi qadın yazıçı, "Biz hamımız feminist olmalıyıq" esse-əsərinin müəllifi; Mişel Obama – Amerikanın əvvəlki prezidenti Barak Obamanın həyat yoldaşı, ABŞ-nın Birinci xanımı feminist fəal və təhsilin bütün qızlar üçün əlçatanlığını dəstəkləyən və başqalarının adlarını çəkə bilərik [7].

Feminizm termini altında əvvəllər qadınlara xas olan feminist xüsusiyyətləri aid edib, onu kişilərə qarşı qoysalar da, XIX əsrin sonlarında artıq "feministika" sözü yaranaraq sufrajist (sufrajist – qadınlara seçki hüququnun verilməsi uğrunda hərəkat) hərəkatın ayrı-ayrı tərəfləri kimi adlandırılmaqla "feminizm" getdikcə dövrümüzdə özünün bizim vərdiş etdiyimiz semantikasını əldə etdi. Məlumat üçün onu da bildirək ki, feminizmin inkişaf tarixində bir sıra dövrlər qeyd etmək olar ki, bunlar onun müxtəlif mərhələlərdə ortaya çıxan dalğaları, gəlişi ilə bağlıdır:

***Birinci dövr.*** XIX əsrin sonu – XX əsrin ortaları. Bu dövr qadınların ümumi siyasi bərabərliyi və təhsilin əlçatanlığına malikolmanı özündə əks etdirirdi. ***İkinci dövr.*** 1960-1990-cı illəri əhatə edirdi. Daha doğrusu, bu dövrdə Avropa və ABŞ-da ön plana siyasi bərabərlik yox, məişət və karyera bərabərliyi məsələsi çıxırdı. Bu ideya əsasən Simon de Bovuarın "İkinci cins" kitabının nəşri ilə başlamışdı ki, onun yanaşmasına görə "Qadın gözəlliyi və qadın anlayışı təbiət etibarilə yoxdur. Bu, "yalnız mədəni ustanovkalardır ki, biz onlara riayət etməliyik." Bovuar qeyd edirdi ki, qızları biz əvvəldən öyrədirik ki, "cins ierarxiyası" deyilən bir şey vardır ki, məhz buna görə də ona yalnız ikinci yer göstərilməlidir. ***Üçüncü dövr.*** 1990-2008-ci illəri əhatə edir. Burada gender identikliyi problemi ortada dayanır ki, onun da əsasında interseksional və radikal feminizm durur; ***Dördüncü dövr*** kimi isə mütəxəssislər 2008-ci ildən bu günümüzə qədər olan mərhələni göstərirlər. Eyni zamanda bu dövr feminizmin yalnız onlayn şəklində fəaliyyətini qeyd etməyə ehtiyac duyulur. Daha doğrusu, bu dövrdə müzakirələrə çıxarılan problemlərin bodipozitiv (yəni gözəlliyin universal standartı mövcud deyil) və xarassment (başqasının həyatına ziyan verən insan davranışı) kimi məsələləri aid edirlər. Dördüncü dövr xeyli cəhətləri ilə üçüncüyə oxşar olduğundan, onu qadın hərəkatında yeni cərəyan kimi fərqləndirənlər o qədər də çox deyillər [8].

Qeyd etdiyimiz bu mərhələləri ayrıca dövr kimi nəzərdən keçirməyənlər də vardır. Məsələn, yuxarıda fikirlərinə müraciət etdiyimiz azərbaycanlı mütəxəssis S.Əliyeva özünün "Mədəni feminizm və maddi hüquq" məqaləsində 1990-cı illərdən bu yana hər hansı mühüm mərhələnin ortaya çıxmadığında israrlıdır. Əslində, bizə belə gəlir ki, müəllifin belə yanaşması daha çox feminizmin Azərbaycan coğrafiyasını nəzərdə tutur. Müəllifə haqq qazandırmaq üçün onu bildirək ki, Avropa və ABŞ-da 2008-ci ildən bu yana feministlər onları maraqlandıran məsələləri onlayn şəklində nəzərdən keçirməyə üstünlük verdikləri halda, Bakının mərkəzi küçələrində, insanların daha çox toplaşdıqları məkanlarda feministlər öz tələb və çağırışlarını daha tez-tez səsləndirməkdədirlər.

Feministlərin bəzən səsləndirdiyi elə tələblər vardır ki, onlar öz mahiyyətinin fakturası və istəkləri baxımından bir tərəfdən bizim cəmiyyətdə (bir qrupu çıxmaq şərti ilə) tamamilə mədəniyyətdən və mədəni ənənələrdən kənar səslənir. Onların içində şəhvət və ehtirasla bağlı tələblərin açıq-saçıqlıqla ödənilməsi mütləq şəkildə irəli sürülür. Digər baxışlar da mövcuddur: məsələn, rus yazıçısı Nataliya Malaxovskaya 1970-ci illərdən bədii əsərlər yazıb, feminist hərəkatına qoşulmaqla elə qeyri-adi tələblərlə çıxış edirdi ki, 1980-ci illər Moskva Olimpiadası zamanı onu ölkədən xaricə yola salmışdılar. Avstriyada yaşayan N.Malaxovskaya deyir ki, mən yaşadığım Zalsburqdan (Avstriya) yox, onun yaxınlığındakı meşədən xoşum gəlir, yaxud "Feminizm dünyanı xilas edəcək" romanında yazır ki, mənim atam deyirdi ki, feminizm dünyanı ona görə xilas edəcək ki, o, Rian Eyslerin "Piyalə və naz" kitabını oxumuşdur. Orada qazıntılar zamanı müəllifin Kiçik Asiyadakı dövlətlərdən birində 8600 il bundan öncə bir dənə də olsa müharibə ol-

mamasından, insanların hamısının da eyni düşündüyündən və rəsmi bərabərlik olmamasına baxmayaraq, onların hamısının bir ilanənin hakimiyyəti altında yaşadıqlarını qeyd etmişdi [6].

Gördüyümüz kimi, feminizmə ən çeşidli mövqelərdən və bəzən bir-birinə zidd rakurslardan yanaşma mövcuddur. Bəziləri onda açıq və azad cəmiyyətin aparıcı elementlərini gördüyü halda, digərləri onun dəyişikliklərə gətirəcəyinə inanır, bəziləri onu illüzor (yalançı) stabillik adlandırır, başqa bir qisim kişilərə nifrət kimi nəzərdən keçirir, digərləri qadının müqəddəs borcu kimi onun uşaq dünyaya gətirməsi, yemək hazırlaması, paltar yuması, ütüləməsi, yalnız ev işləri ilə məşğul olması və s. kimi dəyərləndirirlər, təhsil hüququ olmaması, hətta öz doğma uşaqlarının hüquqlarını qoruya bilməməsi kimi nəzərdən keçirirlər. Lakin dövrümüzdə belə yanaşmaların əksəriyyəti qəbuledilməz olduğu kimi, XVIII əsrin sonuncu rübündə ilk Amerika feministi Ebigeyl Adams 1776-cı ildə öz əri Amerika Prezidenti Con Adamsa aşağıdakıları yazmışdı: "Biz özümüzün iştirakçısı olmadığımız və bizim maraqlarımızı təqdim etməyən hakimiyyətin qanunlarının qəbul edilməsinə tabe olmayacağıq". Ebigeyl Adamsın ortaya qoyduğu tələbin gündəmə gətirilməsinə az qala 100 il lazım gəldi. Yalnız 1869-cu ildə Vayonun ştatında qadınlar səsvermə hüququna malik oldular və planetin qadınlarına İNSAN olmaq hüququ verildi.

Bizə belə gəlir ki, bu gün feminizmi qadının başladığı dialoq kimi nəzərdən keçirmək daha məqsədəuyğun görünə bilərdi. Və belə olduqda feminizmi bütün insanların hüquqları uğrunda humanist hərəkat olduğu kimi qəbul etmək zəruri görünərdi. Çünki hər bir kəsə hörmətli və dəyərli münasibət göstərilməli və hər bir kəs bu məsələdə öz seçim hüququna malik olmalıdır.

Elə buradaca qeyd edək ki, Azərbaycanda feminizm termini "gender" anlayışından daha çox işləkdir. Və buna görə də əsasən daha ümumi müddəaları özündə əks etdirir. Folklorla bağlı feminist yanaşmalar isə, ümumiyyətlə, demək olar ki, bizdə yox dərəcəsindədir. Bu istiqamətdə aparılan adda-budda tədqiqat işləri isə bədii ədəbiyyatda feminizm məsələlərinə həsr olunmuşdur. Məsələn, 2024-cu ildə "Sosialist Feminizm və Feminizmin Digər Növləri" materialında Napikovski adlı bir müəllifin yazısı 2019-cu ildə "Tonght Co" saytında dərc edilmişdir. "Ətəkyazı" tərcümə qrupu isə onu Azərbaycan dilində oxuculara təqdim etmişdir. Yazıda əsasən qadınların cəmiyyətdə rolu, onların diskriminasiyası və s. diqqət yetirilməklə, burada "Sosialist feminizm", "Sosialist Feminizm və Mədəni Feminizm", "Sosialist Feminizm və Radikal Feminizm", "Sosialist Feminizm və Sosializm və ya Marksizm" kimi istilahlara münasibət sərgilənmişdir.

Beləliklə, feminizmin sırf folklorla bağlılığı məsələsi isə bu tipli sosial şəbəkələrdə yer almamışdır. Rusdilli mənbələrə nəzər saldıqda isə biz burada bir sıra materiallarla rastlaşırıq. Feminizm və folklor mövzulu materiallarda qadının xalq mədəniyyəti və müxtəlif ölkələrin folklorunda yerinə nəzər salınır. Vikipediyada isə son illərdə "Feminizm və folklor" adı altında beynəlxalq müsabiqələr keçirilir.

Bu tipli layihələr xeyli ölkələri – Hindistan, ABŞ, Nigeriya, Filippin, Banqladeş, Haiti, Tanzaniya, Pakistan, Çad, Madaqasqar, Cənubi Afrika, Tailand, Macarıstan, Rusiya, İtaliya, İsveçrə, Finlandiya, Bosniya və Hersoqovina, Xorvatiya, Çernoqoriya, Serbiya, Myanma, İrlandiya, Nepal, Tunis, Kamerun və digər dövlətləri əhatə etməkdədir. Bundan başqa, "feminizm və folklor" mövzusu ilə bağlı neçə illərdir ardıcıl olaraq müsabiqələr hər ilin fevral və mart aylarında keçirilməklə qadınların bu sahəyə verdikləri töhfələri sənədləşdirir. Maraq dairəmizə yaxın olan bu axtarışları biz müxtəsər də olsa qaraqalpaq folklor və epik nümunələrində illüstrasiya edə bildik. Bu baxımdan lap qədim dövrlərdən mifoloji və tarixi örnəklərdən başlayaraq, Azərbaycan və qaraqalpaq şifahi və yazılı söz sənətində Astiyaq haqqında əfsanə, Nizami Gəncəvinin "Xəmsə"sində, Arif Ərdəbilinin "Fərhadnamə"sində, türk xalq qəhrəmanlıq dastanları "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" və s., o cümlədən qaraqalpaq dastanları "Alpamış", "Bozoğlan", "Koblan", "Er-Şora", "Qırx qız", "Qurbanbəy", "Şəryar", çoxsaylı əfsanə, hekayət və nağıllarda qadına verilən rol onların kişilərlə bərabər, xeyli hallarda hətta kişilərdən də artıq qəhrəmanlıq göstərib, öz hüquqları uğrunda necə mübarizə apardıqlarının müxtəlif tərəflərini göz önünə gətirməkdədir.

**Ədəbiyyat**


1. Алиева С.А. Культурный феминизм и материально краво // Философия, мәдететану, саясаттану сериясы. 2019, № 4 (70).
2. Гадагатль А.М. Памятник нации. Идейно-тематическое художественное своеобразие героического эпоса «Нартхэр»адыкских народов. Майкоп. 2002, 440 с.
3. Qaraqalpaq xalq nağılları. Çevirəni: Nizami Tağısoy. Bakı, "Mütərcim", 2006, 212 s.
4. Məmmədova Ş. Azərbaycan-qaralpaq folklor və epik əlaqələri. Bakı, "Elm və təhsil", 2021, 264 s.
5. Хайруллина А. Р., Мустафина Р.Д. Мотивы феминизма в башкирских народных сказках. Фольклористика. https: // cyberleninka. ru
6. Писательница Наталия Малаховская: «Феминизм нужен Бабе Яге». https // www.svoboda.org
7. https:// meta.wikimedia.org
8. https://trends.rbc.ru